Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Netanyahu Trampın Qəzza planını rədd edir

indicə




B.Netanyahu və D.Tramp

İsrailin baş naziri **Binyamin Netanyahu** ABŞ prezidenti **Donald Tramp**ın Qəzza ilə bağlı son planını yenidən rədd edib. Netanyahu bunu bazar günü – avqustun 9-da bildirib.

Tramp regionda sülhün bərpası üçün 15 bəndlik yeni yol xəritəsi təklif edib.

İsrail ordusu Trampın təzyiqi altında avqustun 3-dən Qəzzada hücumları faktiki dayandırıb. Həmin gün Trampın atəşkəsə nəzarət edən "Sülh Şurası"nın Qəzza üzrə nümayəndəsi **Nikolay Mladenov** Netanyahu ilə görüşüb. Mladenov bazar günü yeni yol xəritəsi ilə bağlı müzakirələrin davam etdiyini bildirib.

Tramp ötən ay Qəzza planı üzrə irəliləyiş əldə olunduğunu açıqlamışdı. Plana əsasən, HƏMAS silahlarını təhvil verdikcə İsrail qüvvələri geri çəkilməli, Beynəlxalq

Sabitləşdirmə Qüvvələri isə yeni Fələstin polis qüvvələri ilə birlikdə Qəzzada təhlükəsizliyi təmin etməlidir.

ABŞ və Avropa İttifaqı HƏMAS-I terrorçu təşkilat sayır.

**"İsrail 15 bəndlik sənədi qəbul etmir",** – Netanyahu Nazirlər Kabinetinin iclasında deyib. Onun sözlərinə görə, HƏMAS tərksilah edilməyənəcən ordu **"geri çəkilməyəcək. Buraya ağır silahlar, yüngül silahlar – bütün silahlar daxildir".**

Netanyahu İsrailin planla bağlı ABŞ ilə danışıqlar apardığını da deyib.

Tramp ötən ay bildirib ki, İranın dəstəklədiyi HƏMAS silahı yerə qoymağa razılaşıb.

HƏMAS isə birbaşa "tərksilah" ifadəsini işlətmir. Qruplaşma bildirib ki, silahların təhvil verilməsinə razıdır, onlar ABŞ-nin dəstəklədiyi, "Sülh Şurası"nın nəzarəti altında Qəzzanı idarə edəcək Fələstin texnokrat administrasiyasının nəzarətində saxlanılacaq.

2023-cü il oktyabrın 7-də HƏMAS-ın İsrailə hücumu nəticəsində 1200 nəfərin öldürüldüyü, 250-dən çox insanın isə girov götürüldüyü açıqlanıb. İsrailin bu hücuma cavab olaraq Qəzzaya endirdiyi zərbələr nəticəsində azı 70 min insanın həlak olduğu bildirilir.

Ötən ilin oktyabrında Tramp Qəzzada atəşkəs elan edib. O vaxtdan Qəzzada atəşkəs dəfələrlə pozulub. Qəzza səhiyyə rəsmiləri İsrailin hücumları nəticəsində 1200-dən çox fələstinlinin, əsasən mülki şəxslərin həlak olduğunu bildirir. İsrail hakimiyyətinin məlumatına görə, silahlı qruplaşmaların hücumları nəticəsində dörd israilli hərbçi öldürülüb. HƏMAS isə adətən öz itkilərini açıqlamır.

Beynəlxalq liderlərin koalisiyası olan Sülh Şurasını Tramp Qəzzada davamlı sülhün qurulması, yenidənqurma işlərinin aparılması üçün yanvarda təsis edib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur